*Təranə CAVADOVA*

## XOCALI

Xalqı dərd yaman vurdu.
Düşmən də yaman vurdu,
Sağalmaz bir dərd oldu
Bu Xocalı dərdimiz!
Günəş, necə çıxırsan
Sən de - necə yanıırsan.
Söylə sən görüm mənə,
Yanmaqda sən güclüsən?
Yoxsa yanar ürəyim?
Dərdimiz böyük dərddir,
Ürək közləyən dərddir.
Fələk də çaşdığından
Mat qaldığı bir dərddir.
Yerdə qalmadı bu qan,
Yurdun mərd oğulları
Aldı tökülən qanı.
Zirvələrdə yelləndi
Üçrəngli şanlı bayraq!
Başın sağ olsun Vətən
Doğma yurdum məkanım,
Azərbaycan torpağım!

## DÜNYA

Bilmirəm necə gəldik bu yerə,
Harda vicdanı verdik yellərə.
Bu necə zamandır,necə həyatdır,
Ötdükcəfikirlər könlüm daralır.

Yaşandıqca qoca dünya məhv olur,
Yer üzündə insanlıqlar məhv olur.
Uca Tanrı gəl tez yetiş, nə olur,
Səndən başqa hər nə varsa məhv olur.

Nigaranam səndən dünya nolaydı,
Mən qayıdıb,birdə sənə baxaydım,
Harda olsam, dünyada ya səmada,
Göy üzündən yağış kimi yağaydım,
Mən qayıdıb,birdə sənə baxaydım.

23.02.2023.

Kredo.- 2023.- 10 mart.- S.13.